**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

**DOI: 10.59610/bbu4.2024.4.4**

*Həsənov İsmayıl Cəfər oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: i_hasanov_65@mail.ru;*

*Əlizadə Şəmşad Nəbi oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: shamo.88@mail.ru*
*© Həsənov İ.C., Əlizadə Ş.N., 2024*

**UOT: 368.03**
**JEL: G22, G32**

# AZƏRBAYCANIN SIĞORTA ŞİRKƏTLƏRİNDƏ MALİYYƏ TƏHLİLİNİN APARILMASI XÜSUSİYYƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – maliyyə təhlilinin köməyi ilə Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin inkişaf meyllərini və ya fəaliyyətlərindəki çatışmazlıqları müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində ümumiləşdirmə, iqtisadi təhlil, məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatda araşdırılmış maliyyə təhlilinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycanın sığorta şirkətlərində onun səmərəli aparılması təmin edilə bilər.

**Tədqiqatın nəticələri** – sığorta şirkətlərinin rentabelli fəaliyyətinin təmin edilməsi məqsədilə maliyyə təhlilinin davamlı olaraq aparılması zəruridir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycanın sığorta şirkətlərində maliyyə təhlilinin aparılması üçün metodlar müəyyən edilmiş və sistemləşdirilmişdir.

**Açar sözlər:** maliyyə təhlili, maliyyə hesabatları, sığorta şirkətləri, inkişaf meyilləri.

## G İ R İ Ş

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın müxtəlif sahələrində yeni müəssisələr yaranmaqda və fəaliyyət göstərməkdədir. Zamanla fəaliyyətin inkişaf etdirilməsi və maksimum mənfəətin əldə edilməsi hər bir müəssisə rəhbərinin başlıca məqsədidir. Bu amili biz iqtisadiyyatın istənilən sektorunda görə bilərik. Lakin onu da vurğulamaq lazımdır ki, ağır rəqabət şərtləri altında hər müəssisə uğur qazana bilmir. Bunun bir neçə səbəbini izah etmək olar. Səbəblərdən biri odur ki, müəssisə rəqabətqabiliyyətli olmur. Başqa bir səbəb ondan ibarətdir ki, müəssisə müxtəlif səbəblərdən bazarda öz mövqeyini qoruyub saxlaya bilmir. Bundan əlavə müəssisədə maliyyə sabitliyinin pozulması, o cümlədən uzun müddət likvidlik probleminin davam etməsi onun uğursuzluğuna səbəb olur.

Qeyd edək ki, müəssisələrin uğurlu fəaliyyətinə daha bir əhəmiyyətli amil təsir göstərir. Bu amilin maliyyə təhlili olduğunu qeyd edə bilərik. Belə ki, son dövrlər bir çox müəssisələr-

**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

də maliyyə təhlilinin düzgün və səmərəli aparılmaması onların rentabelli fəaliyyətinə mənfi təsir göstərir. Bu baxımdan fəaliyyət sahəsindən asılı olmayaraq hər bir müəssisədə maliyyə təhlilinin əhəmiyyəti çox böyükdür.

Müasir dövrdə maliyyə təhlilinin əhəmiyyəti sığorta şirkətlərində də özünü göstərir. Belə ki, maliyyə təhlili vasitəsilə sığorta şirkətlərinin inkişaf meyilləri, o cümlədən onların fəaliyyətindəki çatışmazlıqlar üzə çıxarılır. Digər tərəfdən maliyyə təhlili sığorta şirkətlərinin maliyyə proqnozlaşdırılmasında böyük rol oynayır.

Maliyyə təhlilinin köməyi ilə sığorta şirkətlərinin mövcud maliyyə vəziyyəti, fəaliyyət nəticəsi, pul axınlarının səmərəliliyi, aktivlərin, kapitalın, o cümlədən öhdəliklərin həcmi qiymətləndirilir. Odur ki, maliyyə təhlili sığorta şirkətlərinin inkişaf potensialını qiymətləndirmək məqsədi ilə onun mövcud maliyyə vəziyyəti və fəaliyyət nəticələri haqqında məlumatların öyrənilməsinə əsaslanan prosesdir. Bütün bu amilləri nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycanın sığorta şirkətlərində maliyyə təhlilinin effektiv qaydada aparılması aktual məsələlərdən biri hesab olunur.

**Sığorta şirkətlərinin fəaliyyətində maliyyə təhlilinin rolu**

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da sığorta xidmət sektorunun mühüm və ayrılmaz tərkib hissəsi hesab olunur. Məlum olduğu kimi, bütün ölkələrdə sığorta insanların həyatı, sağlamlığı və eləcə də əmlakının qorunması ehtiyacını əks etdirir. Sığorta maliyyə mexanizminin tərkib hissəsi sayılmaqla yanaşı, həm də sosial sahənin tərkib hissəsidir [4, s.6].

Sığorta maliyyə münasibətlərinin ən mühüm komponentlərindən biridir. Bu baxımdan o, maliyyə sisteminin ayrılmaz tərkib hissəsi olsa da, maliyyədən fərqli olaraq gəlirlərin və yığımların bütövlükdə bölgüsünü yox, yenidən bölgüsünü əks etdirir. Bu baxımdan sığorta maliyyənin bir kateqoriyası olaraq pul vəsaitlərinin bölüşdürülməsində iştirak edən müəyyən məqsədli fondların formalaşdırılması və istifadəsi üçün önəmli sayılan məbləğə əsaslanır [2, s.11].

Hər bir ölkədə sığorta şirkətlərinin rentabelli fəaliyyəti ən aktual məsələlərdən biri hesab olunur. Məhz bu baxımdan sığorta şirkətlərinin uğurlu fəaliyyətinin təmin edilməsində maliyyə təhlilinin böyük rolu vardır. Maliyyə təhlili maliyyə hesabatlarının məlumatları əsasında müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdrılması üsuludur. Maliyyə təhlili balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti, o cümlədən kapitalda dəyişikliklər hesabatının məlumatlarına əsaslanır.

Sığorta şirkətlərində maliyyə təhlilinin başlıca məqsədi maliyyə vəziyyətini qiymətləndirməkdən və müəssisənin effektiv fəaliyyətini təmin etmək üçün onun imkanlarını müəyyənləşdirməkdən ibarətdir. Sığorta şirkətlərində maliyyə təhlili aşağıdakı məqsədlərin təmin edilməsi üçün aparılır: [3, s.7]

1. Sığorta şirkətlərinin maliyyə potensialının qiymətləndirilməsi;
2. İnvestisiya potensialının qiymətləndirilməsi;
3. Maliyyə resurslarının qiymətləndirilməsi;
4. Maliyyə təhlili əsasında sığorta şirkətlərinin müsbət tərəflərinin və çatışmazlıqlarının aşkar edilməsi.

Digər tərəfdən maliyyə təhlili maliyyə resurslarından səmərəli istifadə edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, sığorta xidmətləri rentabelliyinin yüksəldilməsi məqsədlərini güdür. Qeyd etmək lazımdır ki, hər bir şirkətdə olduğu kimi sığorta şirkətlərində bəzi proseslərin həyata keçirilməsi son dərəcə önəmlidir. Bu proseslərdən biri maliyyə uçotudur. Maliy-

AUDİT 2024, 4 (46), səh. 43-52.
AUDIT 2024, 4 (46), pp. 43-52.
АУДИТ 2024, 4 (46), стр. 43-52.

yə uçotu əsasında sığorta şirkətlərinin cari mühasibat və maliyyə əməliyyatları müvafiq mühasibat proqramında uçota alınır. Bu baxımdan maliyyə uçotu sığorta şirkətlərinin cari informasiyası hesab olunur. Digər önəmli proses sığorta şirkətlərinin maliyyə idarəetməsidir. Yəni burada maliyyə meneceri sığorta şirkətində maliyyə planlaşdırılmasını, maliyyə resurslarının səfərbər edilməsini, o cümlədən maliyyə risklərinin idarəedilməsini effektiv şəkildə həyata keçirməlidir.

Sığorta şirkətlərində başqa bir önəmli fəaliyyət audit yoxlamasıdır. Təbii ki, maliyyə uçotu və maliyyə idarəetməsi sığorta şirkətində çalışan daxili auditor, o cümlədən şirkətə dəvət olunan xarici auditor tərəfindən düzgün şəkildə yoxlanılmalıdır. Nəhayət sığorta şirkətlərində ən əhəmiyyətli proseslərdən digəri isə maliyyə təhlilidir. Qeyd olunan bu üç proses bir-biri ilə sıx bağlıdır. Təbii ki, maliyyə təhlili olmadan sığorta şirkətlərinin uğurlu fəaliyyətini təmin etmək qeyri mümkündür. Çünki maliyyə təhlili əsasında sığorta şirkətlərinin inkişafa və yaxud müflisləşməyə doğru getməsi müəyyən olunur. Maliyyə təhlili əsasında sığorta şirkətlərinin aktivlərinin, öhdəliklərinin, o cümlədən kapitalının həcmi müəyyən olunur. Bundan əlavə sığorta şirkətlərində müxtəlif istiqamətlərdən pul axınının qiymətləndirilməsi maliyyə təhlili əsasında reallaşır. Maliyyə təhlilinin köməyi ilə sığorta şirkətlərinin likvidlik, mənfəətlilik və ya zərərlilik dərəcəsi, o cümlədən maliyyə sabitliyi qiymətləndirilir.

Qeyd edək ki, maliyyə təhlili bir xəbərdarlıq siqnalıdır. Bu təhlil əsasında ortaya çıxan mövcud vəziyyət barədə müəssisə rəhbərliyinə dərhal məlumat verilir. Yuxarıda qeyd etdiyimiz məsələlər fəaliyyət sahəsindən asılı olmayaraq hər bir müəssisə üçün əhəmiyyətlidir. Bu səbəbdən sığorta şirkətlərində də effektiv maliyyə təhlilinin aparılması mühüm əhəmiyyət kəsb edən amillərdən biridir.

**Azərbaycanın sığorta şirkətlərində maliyyə təhlilinin aparılması istiqamətləri**

Sığorta fəaliyyəti milli iqtisadiyyatın tərkib hissəsi olmaqla xüsusi bir sahə hesab olunur. O istehsal və xidmət sahəsində müxtəlif risklərin qarşısını almaq üçün görülən tədbirlərdir. Məlum olduğu kimi sığorta şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir [1].

Hər bir şirkətdə maliyyə təhlili önəmli olduğu kimi sığorta şirkətlərində də önəmlidir. Sığorta şirkətlərində maliyyə nəzarətinin əsas məqsədi aparılan sığorta fəaliyyətinin qanunvericiliyə uyğunluğunu yoxlamaq, sığorta şirkətlərinin mövcud maliyyə vəziyyətini qiymətləndirmək, sığorta sahəsində ortaya çıxan nöqsanları və çatışmazlıqları müəyyən etmək və aradan qaldırmaqdan ibarətdir.

Maliyyə təhlilini aparan şəxs aşağıdakı məsələlərə diqqət yetirməlidir: maliyyə risklərinin qarşısını almaq üçün sığorta şirkətinin maliyyə potensialı, sığorta tariflərinin düzgün hesablanması və tətbiqi, sığorta ehtiyatlarının yaradılması, sığortaçının maliyyə sabitliyi və ödəmə qabiliyyəti, sığorta şirkətinin investisiya fəaliyyəti, müxtəlif maliyyə risklərindən qorunmaq üçün və sığorta vəsaitinin təhlükəsizliyini təmin etmək məqsədi ilə təkrar sığortanın vəziyyəti, sığorta şirkətinin nizamnamə kapitalının səviyyəsi və s.

Maliyyə təhlili aparılan zaman sığorta şirkətlərində kassa əməliyyatlarının, debitor və kreditor borclarının, maliyyə hesabatlarının təhlili mühüm əhəmiyyət kəsb edir. Maliyyə təhlili zamanı debitor borclarının təhlili vacib amillərdən biridir.

AUDİT 2024, 4 (46), səh. 43-52.
AUDIT 2024, 4 (46), pp. 43-52.
АУДИТ 2024, 4 (46), стр. 43-52.

Gecikən və ödənilməyən debitor borcları aşkar edilməli və bu haqda rəhbərliyə məlumat verilməlidir. Kreditor borclarının maliyyə təhlili zamanı üzə çıxarılması da son dərəcə önəmlidir. Çünki kreditor borclar da vaxtında ödənilməli və gecikmələrə yol verilməməlidir. Maliyyə təhlili zamanı kreditor borclarının ödənilməməsi və ya gecikməsi sığorta şirkətində likvidlik probleminin mövcud olmasına işarə ola bilər.

Maliyyə təhlili zamanı sığorta şirkətlərinin rentabellik səviyyəsi də qiymətləndirilməlidir. Bu məsələ sığorta şirkətlərinin maliyyə hesabatları əsasında reallaşdırılır. Belə ki, maliyyə təhlilini həyata keçirən şəxs şirkətin müxtəlif illərə aid balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti, kapitalda dəyişikliklər kimi maliyyə hesabatlarını müqayisəli təhlilini apararaq şirkətin likvidlik, rentabellik və maliyyə sabitliyi səviyyəsini qiymətləndirə bilər. Maliyyə təhlili zamanı müxtəlif metodlardan istifadə oluna bilər [5].

**Üfüqi təhlil metodu** sığorta şirkətinin iki və ya ikidən çox ilə uyğun hazırlanmış maliyyə hesabatlarının faizlərlə artım və ya azalmasını xarakterizə edən metoddur. Bu metodla hesablama aparılarkən ikinci ilin məlumatlarından birinci ilin məlumatları çıxılır, qalıq məbləğ məbləğ isə birinci ilin məlumatlarına bölünür və sonda yüz faizə vurulur. Bu yolla ildən ilə artım və ya azalma faizi müəyyən olunur.

**Şaquli təhlil metodu** maliyyə hesabatının strukturunun qiymətləndirilməsini əks etdirən təhlil metodudur. Bu metod sığorta şirkətinin maliyyə hesabatlarındakı elementlərinin öz qrupları daxilində faiz nisbətini göstərir. Bu metodla hesablama aparılarkən məbləğ 100-ə vurulur və qrupun məbləğinə bölünür.

**Trend təhlil metodu** əsasında sığorta şirkətinin təhlil olunan maliyyə hesabatlarındakı göstəricilər əvvəlki illərlə müqayisə olunur. Başqa təhlil metodlarından fərqli olaraq bu metodda sığorta şirkətinin 4 və ya 5 ildən artıq dövrünə aid maliyyə hesabatlarının elementlərinin birinci ilə nisbətən artım və yaxud azalması müəyyən olunur.

**Nisbət təhlili metodu** müəyyən maliyyə əmsallarının köməyi ilə sığorta şirkətinin mövcud maliyyə vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsi metodudur. Nisbət təhlili əsas maliyyə əmsalları sayılan likvidlik, maliyyə strukturu, fəaliyyət və mənfəətlilik əmsalları əsasında aparılır.

Qeyd edək ki, maliyyə təhlili sığorta şirkətlərinin topladığı sığorta haqları və etdiyi sığorta ödənişləri üzrə də aparıla bilər. Belə ki, Azərbaycanda fəaliyyət sığorta şirkətlərinin 2020-2023-cü illər üzrə sığorta haqları və sığorta ödənişlərini 1 saylı cədvəldən görə bilərik.

*Cədvəl 1.*

**Sığortaçılar üzrə hesablanmış ümumi sığorta haqları və ödənişləri (milyon manatla)**

| İllər | "Paşa Sığorta" | | "Az Sığorta" | | "Xalq Sığorta" | | "Atəşgah Həyat" | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri |
| **2020** | 163,5 | 71,5 | 15,9 | 5,9 | 31,2 | 17,6 | 41,5 | 55,9 |
| **2021** | 179,2 | 75 | 11,3 | 7,4 | 35,6 | 21,8 | 44,1 | 31,6 |
| **2022** | 215,1 | 66,9 | 11,1 | 9,4 | 42,3 | 27,5 | 53,5 | 29,9 |
| **2023** | 293,1 | 144 | 8,5 | 7,3 | 24,1 | 22,1 | 71,6 | 25,7 |

***Mənbə: Cədvəl Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında müəlliflər tərəfindən tərtib olunmuşdur[6]. - https://www.cbar.az/page-189/insurance***

**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

Təhlil zamanı 2020-2023-cü illəri əhatə edən dövr ərzində sığorta haqları və sığorta ödənişləri üzrə ən yüksək göstərici "Paşa Sığorta" ASC və "Atəşgah Sığorta" ASC şirkətlərinə aid olduğu müşahidə olunmuşdur. Digər sığorta şirkətlərində isə bu dövr ərzində tədricən azalmalar baş vermişdir. Bunun əsas səbəblərindən biri kimi "Paşa Sığorta" ASC-nin sığorta bazarında kifayət qədər nüfuza sahib olmasını göstərə bilərik. Digər önəmli səbəb isə "Paşa Sığorta" ASC-nin sığortalıları məlumatlandırma səviyyəsinin yüksək olması ilə əlaqədardır. Son dövrlər Azərbaycanda insanların müəyyən qədər həyat sığortasının müxtəlif növlərinə maraq göstərməsi "Atəşgah Həyat" ASC-nin həyat sığortası üzrə yığımlarının, o cümlədən ödənişlərinin artmasına səbəb olmuşdur.

Təhlil eyni zamanda 2020-2023-cü illərə aid dövr ərzində müxtəlif sığorta növləri üzrə də aparılmışdır. Belə ki, Azərbaycanın sığorta şirkətləri tərəfindən 2020-2023-cü illərdə sığorta növləri üzrə sığorta yığımları və ödənişlərinə aid məlumatlar cədvəl 2-də verilmişdir.

Təhlil zamanı 2020-2023-cü illəri əhatə edən dövr ərzində sığorta haqları və sığorta ödənişləri üzrə ən yüksək göstərici həyat sığortasının payına düşdüyü müşahidə olunur. Bu isə o deməkdir ki, son dövrlər Azərbaycanda həyat sığorta növü üzrə sığorta etdirmək istəyən insanların sayı artıb.

Əvvəllər bu sığorta növü üzrə sığorta haqları xeyli aşağı olsa da, aparılan təhlillər bu sığorta növü üzrə yığımların, o cümlədən ödənişlərin əhəmiyyətli dərəcədə artdığını göstərir. Bundan əlavə, son 4 il ərzində daşınmaz əmlak bazarında artım olduğundan, əmlak sığortası üzrə də sığorta haqlarında və sığorta ödənişlərində artım müşahidə olunmuşdur. Son 4 il ərzində icbari sığorta növləri üzrə də sığorta haqlarında və ödənişlərində artım müşahidə olunmuşdur.

*Cədvəl 2.*

**Sığorta növləri üzrə sığorta haqları və ödənişləri (milyon manatla)**

| Sığorta növləri | 2020 | | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sğorta haqları | Sığorta ödənişləri |
| Həyat sığortası | 249,7 | 280,4 | 319,6 | 235,7 | 425,1 | 244,7 | 545,2 | 294,8 |
| Fərdi qəza və xəstəlik sığortası | 2,9 | 0,2 | 2,7 | 0,2 | 3,8 | 0,2 | 4,9 | 0,2 |
| Tibbi sığorta | 101,6 | 67,9 | 102,6 | 78,9 | 112,3 | 70,2 | 121 | 82,4 |
| Səyahət sığortası | 1,4 | 0,3 | 2,9 | 0,2 | 5,2 | 0,5 | 6 | 0,5 |
| Əmlak sığortası | 125,8 | 29,4 | 134,4 | 23,4 | 181,6 | 21,9 | 182,7 | 101,2 |
| Mülki məsuliyyətin sığortası | 20,8 | 0,6 | 20,4 | 0,7 | 22,3 | 0,9 | 23,8 | 0,2 |
| İcbari sığortalar üzrə cəmi | 225,9 | 86,4 | 257,3 | 119,5 | 242,8 | 95,6 | 334,4 | 108,1 |

***Mənbə: Cədvəl Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatları əsasında müəlliflər tərəfindən tərtib olunmuşdur[6]. - https://www.cbar.az/page-189/insurance***

Təhlil zamanı 2020-2023-cü illəri əhatə edən dövr ərzində sığorta haqları və sığorta ödənişləri üzrə ən yüksək göstərici həyat sığortasının payına düşdüyü müşahidə olunur. Bu isə o deməkdir ki, son dövrlər Azərbaycanda həyat sığorta növü üzrə sığorta etdirmək istəyən insanların sayı artıb.

AUDİT 2024, 4 (46), səh. 43-52.
AUDIT 2024, 4 (46), pp. 43-52.
АУДИТ 2024, 4 (46), стр. 43-52.

Əvvəllər bu sığorta növü üzrə sığorta haqları xeyli aşağı olsa da, aparılan təhlillər bu sığorta növü üzrə yığımların, o cümlədən ödənişlərin əhəmiyyətli dərəcədə artdığını göstərir. Bundan əlavə, son 4 il ərzində daşınmaz əmlak bazarında artım olduğundan, əmlak sığortası üzrə də sığorta haqlarında və sığorta ödənişlərində artım müşahidə olunmuşdur. Son 4 il ərzində icbari sığorta növləri üzrə də sığorta haqlarında və ödənişlərində artım müşahidə olunmuşdur.

Sığorta şirkətlərinin effektiv və uğurlu fəaliyyət göstərməsinin əhəmiyyətini nəzərə alaraq qeyd etmək olar ki, sığorta şirkətlərində üfüqi, şaquli, nisbət, trend, o cümlədən müqayisəli üsullar vasitəsilə maliyyə təhlilinin aparılması son dərəcə mühüm əhəmiyyətə malikdir. Bununla əlaqədar müasir dövrdə Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsini bir sıra istiqamətlərdə reallaşdırmaq mümkündür. Bunları aşağıdakı şəkildə sıralaya bilərik:

**1. Daxili nəzarət sisteminin səmərəli formalaşdırılması.** İqtisadiyyatın istənilən sahəsində fəaliyyət göstərən müəssisələrdə strateji hədəflərə çatmaq üçün əsas sayılan amillərdən biri kimi daxili nəzarət sisteminin dünya standartlarına uyğun yaradılması vacibdir. Azərbaycanın sığorta bazarında mütəmadi şəkildə artan rəqabət muhiti şirkətlər tərəfindən təklif olunan sığorta məhsulları növlərinin və xidmət keyfiyyətinin yüksəldilməsi ilə bərabər, şirkətlərin daxilində güclü idarəetmə strukturunun və daxili nəzarət sisteminin formalaşmasını da tələb edir. Elə buna görə sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi daxili nəzarət sisteminin effektiv formalaşdırılmasına əsaslanır.

**2. GZİT (SWOT) təhlilinin düzgün aparılması.** Bazar iqtisadiyyatı şəraitində hər bir müəssisə və sahibkarlıq subyektlərinin fəaliyyətinin təhlil edilməsi olduqca zəruridir. Burada rol oynayan əsas amil isə müəssisələrin SWOT təhlilidir. SWOT təhlili təkcə sənaye və istehsal müəssisələri üçün əhəmiyyətli deyildir. O, həmçinin xidmət sektorunun ayrılmaz tərkib hissəsi olan sığorta şirkətləri üçün də son dərəcə önəmlidir. SWOT təhlilin mənası onun baş hərflərindən götürülmüşdür. Belə ki, burada S-Strength (güclü tərəflər), W-weakness (zəif tərəflər), O-opportunity (imkanlar), T-treat (təhlükələr) mənasını verir. Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi baxımından mühüm amil sayılan SWOT təhlilə aid bir misal cədvəl 1-də göstərilmişdir.

*Cədvəl 3.*

**Sığorta şirkətlərində GZİT (SWOT) təhlili**

| Güclü tərəflər | Zəif Tərəflər | İmkanlar | Təhlükələr |
|---|---|---|---|
| Sığorta xidmətlərinin yüksək keyfiyyəti | Zəif idarəetmə | Potensial müştəriləri cəlb etmə imkanı | Dövlətin vergi dərəcələrini yüksəltməsi |
| Bazar araşdırmasının yüksək səviyyədə olması | Daxili nəzarətin zəif olması | İqtisadiyyatın inkişafına müsbət təsir etmə imkanı | Ölkədə baş verən mənfi iqtisadi və siyasi proseslər |
| Şirkətdə maliyyə sabitliyinin mövcud olması | İnvestisiyanın gəlirli sahələrə yönəldilə bilməməsi | Böyümə və inkişaf etmə potensialı | Ortaya çıxan risklərə qarşı tədbir görülməməsi |

AUDİT 2024, 4 (46), səh. 43-52.
AUDIT 2024, 4 (46), pp. 43-52.
АУДИТ 2024, 4 (46), стр. 43-52.

**3. Gəlir və xərclərin səmərəli idarə olunması:** Sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi yollarından biri gəlir və xərclərin səmərəli idarə olunması hesab olunur. Hər bir şirkətin başlıca məqsədlərindən biri xərcləri azaltmaq, gəlirləri isə yüksəltməkdən ibarətdir. Sığorta şirkətlərinin gəlirləri əsasən toplanan sığorta haqlarından, xərcləri isə sığorta hadisəsi zamanı zərər çəkmiş sığortalılara edilən sığorta ödənişlərindən ibarət olur. Sığorta şirkətləri əldə etdiyi sığorta haqlarından yüksək gəlir gətirən sahələrə investisiya yatıra bilər. Ancaq burda diqqət edilməsi mühüm olan məqamlardan biri odur ki, sığorta şirkətləri əldə etdiyi gəlirləri səmərəli idarə etməli, əvvəlcədən iqtisadiyyatın gəlir gətirən sektorlarını araşdırmalı və sonra bu addımı atmalıdır. Hər bir sığorta şirkəti baş verən sığorta hadisəsinə görə əvvəlcədən sığorta ehtiyatı yaradır. Sığorta şirkətlərinin formalaşdırdığı sığorta ehtiyatından gələcəkdə sığorta ödənişi ediləcək ki, bu da onların əsas xərcləri sayılır. Elə buna görə də sığorta ehtiyatları düzgün formalaşdırılmalı, baş verən zərər düzgün qiymətləndirilməli və xərclərin uçotu düzgün aparılmalıdır. Lüzumsuz və sığorta şirkətləri üçün mühüm əhəmiyyəti olmayan xərclərin çəkilməsi onların inkişafına mane ola bilər.

**4. Sığorta sahəsində yüksək peşəkar mütəxəssislərin cəlb edilməsi.** Sığorta sahəsində yüksək savada malik mütəxəssislərin mövcud olması son dərəcə önəmlidir. Çünki yüksək peşəkar savada malik olan mütəxəssislər əhalinin sığorta haqqında məlumatlandırılmasında müstəsna rol oynayırlar. Sığortanın fayda və üstünlüklərinin insanlara ətraflı qaydada izah edilməsi onların sığortaya olan marağını da yüksək həddə çatdırır. Azərbaycanın sığorta bazarında bu cür mütəxəssislərin mövcud olması təbii ki, sığorta xidmətləri keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərəcək. Digər tərəfdən Azərbaycanda sığorta bazarının dərindən araşdırılması, müştərilərlə əlaqələrin qurulması, sığorta şirkətləri üçün faydalı olan müştərilərin seçilməsi məhz yüksək peşəkar savada malik mütəxəssis tələb edir.

**5. Sığorta sahəsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi.** Məlum olduğu kimi, dünyanın inkişaf etmiş ən nüfuzlu sığorta şirkətlərində idarəetmə keyfiyyəti təkmilləşmiş bir səviyyədədir. Belə ki, müştəri ilə əlaqələrin yüksək səviyyədə qurulması, işçi heyətinin düzgün idarə edilməsi, onlara yüksək qiymət verərək motivasiya edilməsi, peşəkar sığorta mütəxəssislərinin mövcud olması, gəlir və xərclərin yüksək səviyyədə idarə edilməsi kimi faktorlar bu sığorta şirkətlərində idarəetmə keyfiyyətinin yüksək səviyyədə olmasını sübut edir. Digər tərəfdən dünyanın qabaqcıl sığorta şirkətlərinin hər birində yüksək idarəetmə qabiliyyətinə malik olan bir rəhbər mövcuddur. Strateji qərarların düzgün verilməsi, sığorta siyasətinin düzgün yeridilməsi və idarəetmə keyfiyyətinin təkmilləşdirilməsi sahəsində aparılan lazımi islahatlar dünyanın ən nüfuzlu sığorta şirkətlərinin uğur qazanmasında böyük rol oynamışdır. Azərbaycanın sığorta şirkətlərində idarəetmə keyfiyyətinin təkmilləşdirilməsində məhz dünyanın qabaqcıl ölkələrinin sığorta şirkətlərinin təcrübəsindən istifadə edilməsi çox faydalıdır.

## Y E K U N

Müasir bazar iqtisadiyyatının ağır rəqabət şərtləri altında uğurlu və səmərəli fəaliyyət göstərmək böyük məsuliyyət və dəqiq araşdırmalar tələb edir. Bazarda mövqe tuta bilmək, rəqabətqabiliyyətli olmaq, ödəmə qabiliyyətini təmin edə bilmək və maliyyə sabitliyini qoruyub

**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

saxlamaq uğurlu fəaliyyətin reallaşdırılmasında mühüm amillər hesab olunur. Lakin qeyd olunan bu amillərdən əlavə maliyyə təhlilini də qeyd edə bilərik ki, bu amil fəaliyyət sahəsindən asılı olmayaraq hər bir müəssisə üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir. Maliyyə təhlili olmadan heç bir müəssisə fəaliyyətinin nəticəsi barədə xəbərdar ola bilməz. Məhz səmərəli maliyyə təhlili əsasında müəssisə rəhbərləri öz müsbət və mənfi tərəflərini müəyyən edə və müvafiq qərarlar verə bilir. Maliyyə təhlilinin əhəmiyyəti sığorta şirkətlərinin fəaliyyətində özünü daha da qabarıq göstərir. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da fəaliyyət göstərən sığorta şirkətlərində maliyyə təhlili düzgün, səmərəli və davamlı olaraq aparılmalıdır. Sığorta şirkətlərində maliyyə təhlili auditorlar, mühasiblər, o cümlədən maliyyə menecerləri tərəfindən maliyyə hesabatlarının məlumatları əsasında həyata keçirilir.

Maliyyə təhlili həyata keçirilərkən burada müxtəlif üsullardan istifadə oluna bilər. Belə ki, maliyyə təhlilini həyata keçirən şəxs üfüqi, şaquli, trend, nisbət və müqayisəli təhlil üsullarından istifadə edə bilər. Qeyd olunduğu kimi maliyyə təhlili vasitəsilə sığorta şirkətlərində müflisləşmə təhlükəsi, likvidlik dərəcəsi, maliyyə risklərinin mövcud vəziyyəti, ödəmə qabiliyyəti, rentabellik səviyyəsi, maliyyə sabitliyi və digər mühüm amillər üzə çıxarılır. Bundan əlavə maliyyə təhlili vasitəsilə sığorta haqları və sığorta ödənişlərinin dinamikası təhlil olunaraq əsas meyillər aşkar edilir.

Tədqiqat işinin nəticəsinin tərkib hissəsi olaraq, sığorta şirkətlərində maliyyə təhlilinin aparılması üzrə bəzi təklif və tövsiyələrin irəli sürülməsi faydalı ola bilər:

1. Sığorta şirkətlərində maliyyə təhlili davamlı şəkildə aparılmalıdır. Uzun müddət ərzində maliyyə təhlilinin aparılmaması böyük maliyyə risklərinə yol aça bilər.
2. Maliyyə təhlili maliyyə hesabatlarına əsasən səmərəli qaydada aparılmalıdır. Bu baxımdan maliyyə hesabatlarında olan bütün məlumatlar dərindən təhlil olunmalıdır.
3. Maliyyə təhlili müstəqillik prinsipi əsasında həyata keçirilməlidir. Kənardan müdaxilələr yol verilməzdir.
4. Maliyyə təhlili obyektiv və qərəzsiz aparılmalı, təhlilin nəticələri tam şəkildə sığorta şirkətinin rəhbərliyinə bildirilməlidir.
5. Maliyyə təhlili kommersiya sirrinin qorunması prinsipinə əməl edilərək aparılmalıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. “Sığorta fəaliyyəti haqında” Azərbaycan Respublikasının Qanunu: [elektron resurs].- Bakı, 2007. - http://www.e-qanun.az/framework/13983
2. Abbasov İ.M. Sığorta işinin təşkili / İ.M.Abbasov, İ.C Həsənov. Bakı: Bakı Biznes Universiteti nəşriyyatı, 2013, 274 s.
3. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili / Müslümov S.Y, Kazımov R.N. Bakı. 2011, 312 s.
4. Xudiyev N.N. Sığorta / N.N. Xudiyev. Bakı: Azərnəşr, 2003. 450 s.
5. https://banker.az/maliyyə-təhlilinin-texniki usullari/
6. https://www.cbar.az/page-189/insurance

**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

*Ismail Jafar Hasanov,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University,*
*E-mail: i_hasanov_65@mail.ru*

*Shamshad Nabi Alizadeh,*
*Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: shamo.88@mail.ru*
*© I.J. Hasanov, Sh.N. Alizadeh, 2024*

# FEATURES OF CONDUCTING FINANCIAL ANALYSIS IN INSURANCE COMPANIES OF AZERBAIJAN

## A B S T R A C T

**The purpose of the research -** is to identify development trends or deficiencies in the activities of insurance companies operating in Azerbaijan with the help of financial analysis.

**The methodology of the research** - the methods of generalization, economic analysis, logical generalization were used in the research work.

**The practical importance of the research** - taking into account the importance of the financial analysis examined in the study, its effective conduct can be ensured in insurance companies of Azerbaijan.

**The results of the research** - in order to ensure the profitable activities of insurance companies, it is necessary to conduct financial analysis on an ongoing basis.

**The originality and scientific novelty of the research** - methods for conducting financial analysis in insurance companies of Azerbaijan have been identified and systematized.

**Keywords:** financial analysis, financial statements, insurance companies, development trends.

**Büdcə, maliyyə və kredit**
**Budget, Finance and Credit**
**Бюджет, финансы и кредит**

**AUDİT 2024, 4 (46), səh. 43-52.**
**AUDIT 2024, 4 (46), pp. 43-52.**
**АУДИТ 2024, 4 (46), стр. 43-52.**

*Гасанов Исмаил Джафар оглы,*
*кандидат экономических наук, доцент,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: i_hasanov_65@mail.ru;*

*Ализаде Шамшад Наби оглы,*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: shamo.88@mail.ru*
*© Гасанов И.Д., Ализаде Ш.Н., 2024*

# ОСОБЕННОСТИ ПРОВЕДЕНИЯ ФИНАНСОВОГО АНАЛИЗА В СТРАХОВЫХ КОМПАНИЯХ АЗЕРБАЙДЖАНА

## Р Е З Ю М Е

**Цель исследования** – выявление тенденций развития или недостатков страховых компаний, действующих в Азербайджане, с помощью финансового анализа.

**Методология исследования** - в исследовательской работе использовались методы обобщения, экономического анализа и логического обобщения.

**Практическая значимость исследования** - учитывая важность финансового анализа, заключается в его эффективном внедрении в страховых компаниях страны.

**Результат исследования** – необходимо постоянно проводить финансовый анализ с целью обеспечения рентабельной деятельности страховых компаний

**Оригинальность и научная новизна исследования** - определены и систематизированы методы проведения финансового анализа в страховых компаниях страны.

**Ключевые слова:** финансовый анализ, финансовая отчетность, страховые компании, тенденции развития.

*Məqalə redaksiyaya daxil olmuşdur: 11.10.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 13.11.2024*
*Çapa qəbul olunmuşdur: 12.12.2024*

*Дата поступления статьи в редакцию: 11.10.2024*
*Отправлено на повторную обработку: 13.11.2024*
*Принято к печати: 12.12.2024*

*The date of the admission of the article to the editorial office: 11.10.2024*
*Send for reprocessing: 13.11.2024*
*Accepted for publication: 12.12.2024*